# Qəbələ inkişafın yeni və sürətli mərhələsində

## Bölgə bu mərhələdə dünya ictimaiyyətinin diqqəttini özünə cəlb edir

Son 10 ildə Azərbaycanın, o cümlədən Qəbələnin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatı bir sıra əlamətdar hadisələrlə zəngin olmuşdur.

Bu zənginlik onunla bağlıdır ki, ölkə birinci növbədə ümumi daxili məhsul istehsalının tempinə görə nəinki yerləşdiyi geosiyasi məkanda, Avropa və Asiyada, hətta bütün dünya dövlətləri arasında lider dövlətə çevrilmişdir. Heydər Əliyev siyasi kursunun davamı kimi Avratlantik məkanına inteqrasiya kursu uğurla və əzmlə davam etdirilmiş, transmilli enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi həm də ölkəmizi Cənubi Qafqazın ən nüfuzlu dövlətinə çevirmişdir.

Ölkənin hərtərəfli inkişafı çərçivəsində Qəbələ isə özünəməxsus yer tutmuş, qısa tarixi bir zaman kəsiyində respublikada ən sürətlə inkişaf edən regionlardan biri olmuşdur. Vaxtilə qonşu rayonlardan, şəhərlərdən xeyli geri qalan Qəbələ indi sürətli inkişafına, müasir şəhərsalma metodlarına görə onların hamısını üstələmiş, həm regional həm də beynəlxalq səviyyəli iqtisadi və siyasi mərkəzə çevrilməkdədir. Əlbəttə, bu inkişaf və sürətli tərəqqiyyə yol açan real, obyektiv və subyektiv əsaslar vardır. Bunlardan ən başlıcası isə vaxtilə ümummilli liderimiz Heydər Əliyevin Qəbələyə iki dəfə səfəri və bu səfərlər zamanı Qəbələnin əlverişli ehtiyat mənbələrinin, tarixiliyinin, təbiətin bu yerlərə bəxş etdiyi gözəlliklərin, maraqlı bir geosiyasi və strateji məkanda yerləşməsinin üzə çıxarılması idi. Qəbələ çox-çox qədimlərdə 900 ilə qədər Qədim Alban dövlətinin şərqlə qərb arasında tanınan bir paytaxt şəhəri olmuşdur. Ataların gözəl bir məsəli də var: «Su gələn arxa bir də gələr»—deyiblər. Bəli, bu «su» Qəbələyə böyük tarixi şəxsiyyətin, XX əsrin ən təcrübəli dövlət xadimi Heydər Əliyevin Qəbələyə səfərlərindən sonra gəlməyə başlamışdır. Bütün ölkədə, o cümlədən Qəbələdə inkişafın, tərəqqinin sürətlənməsi isə Heydər Əliyev siyasətinin davamçısı, ölkə Prezidenti İlham Əliyevn yüksək təşkilatçılığı, idarəçilik bacarığı, yeni düşüncə tərzi, uzaqgörənliyi, proseslərin icrasında möhkəm iradəyə və qətiyyətə malik olması ilə bağlıdır.

«Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam» deyimi ilə səlahiyyətlərinin icrasına başlayan İlham Əliyev ilk növbədə Azərbaycanın sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında, 2003—2004-cü və 2009-cu illərdə isə ölkənin tarazlı inkişafını təmin etmək üçün Azərbaycan respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları haqqında mühüm sərəncamlar imzalamışdır. Bu proqramlarda başlıca məqsəd ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın bütün sahələrdə tarazlı inkişafına və əhalinin yeni iş yerləri ilə təmin edilməsinə, həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaq idi.

Yuxarıda qeyd etdiyimiz kimi, ölkədə həm geosiyasi cəhətdən, həm strateji baxımdan ən əhəmiyyətli və həm də əsrarəngiz və gözəl təbiəti olan regionlardan biri də Qəbələdir. Odur ki, rayonda tezliklə sürətli sosial-iqtisadi inkişafa yol açıldı. Möhtərəm Prezident İlham Əliyev vaxtaşırı Qəbələyə səfərlər etdi, istər respublikanın digər regionlarında istərsə də Qəbələdə nəzərdə tutulmuş dövlət proqramlarının icrasını şəxsən nəzarətə götürdü, xüsusi əhəmiyyətli tikintilərin gedişini izlədi. Bu məqsədlə təkcə cari ilin avqust ayının ortalarında 4 gün ərzində 24 infrastrukturun—iri avtomobil yollarının, mədəniyyət mərkəzlərinin, olimpiya idman komplekslərinin, yeni məktəb və uşaq bağçalarının mühüm turizm obyektlərinin, açılışında iştirak edib. Qəbələ rayonuna bu ilin fevral və avqust aylarında səfərləri zamanı 10-a qədər belə infrastrukturun açılışını etmiş, bir sıra tikinti işlərinin gedişi ilə tanış olmuşdur.



Cənab Prezident bütün sahələrdə yerli şərait nəzərə alınmaqla, inkişafın milli kolarotinin gözlənilməsini, həm də qabaqcıl dünya ölkələrinin təcrübəsinin ölkəyə gətirilməsini vahid tələb kimi qarşıya qoydu. Deyərdim ki, bu sahələrdə paytaxt Bakı şəhərindən sonra Qəbələ ön plana çıxdı. Digər regionolar inkişafın, tərəqqinin Qəbələ variantını öyrəndilər. Tezliklə Qəbələnin inkişaf və tərəqqi variantı respublika rayonlarına yayıldı. Bu sahədə sanki yarış başladı. Qəbələnin sürətli sosial-iqtisadi inkişafı əvvəlcə respublika rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi. Burada bir-birinin ardınca regional idarələr, təşkilatlar yarandı. Vaxtilə qonşu rayonlarda keçirilən regional tədbirlərin yeri dəyişilərək belə tədbirlər Qəbələdə keçirilməyə başladı. Regional tədbirlərin yerini sonralar respublika tədbirləri əvəz etdi. Artıq belə tədbirlərin keçirilməsi üçün Qəbələdə kifayət qədər şərait yaranmışdır. İlk növbədə Qəbələ şəhərinin görkəmi tamamilə dəyişmiş, küçələr yenidən qurulmuş, Qəbələdən şərqə tərəf paytaxt Bakıya qədər və qərbə tərəf Oğuz—Şəki istiqamətində magistral yollar yenidən quruldu. Bu yollar ta Gürcüstan sərhədlərinə qədər uzandı.

İndi rayonda keçirilən respublika tədbirlərinin sayı ildən-ilə artır, bu tədbirlər öz yerini beynəlxalq tədbirlərə verir. Artıq Qəbələnin şöhrəti təkcə respublikaya deyil, dünyanın bir sıra ölkələrinə yayılır. Son beş ildir ki, Qəbələ Beynəlxalq Musiqi festivallarına, elmi konfranslara, şimpoziumlara, mədəniyyət və incəsənət sərgilərinə ev sahibliyi edir. Bir sıra ölkələrin xarici işlər nazirləri, dövlət başçıları burada görüş keçirirlər. Yuxarıda qeyd etdiyimiz kimi çox-çox qədimlərdə də şöhrətli olan bu diyar yenidən dünyanın siyasət və mədəniyyət mərkəzlərindən birinə çevrilməkdədir.

Son 2—3 aydır ki, Qəbələ bir daha dünya musiqi ictimaiyyətinin, mədəniyyət, elm, təhsil ictimaiyyətinin diqqət mərkəzini özünə cəlb etmişdir. Üçüncü Azərbaycan—Cürcüstan—Türkiyə biznes forumu, V Qəbələ Beynəlxalq Musiqi Festivalı Qəbələnin 2013-cü il üçün MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə əlaqədar dövlətlərarası proqramın açılış mərasimi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III zirvə toplantısı, bu toplantı çərçivəsində xarici işlər nazirlərinin görüşünün keçirilməsi və əməkdaşlıq protokolunun imzalanması qeyd etdiklərimizə əyani sübutdur.

Doğma Azərbaycanımız, onun dilbər güşələrinin bir parçası olan Qəbələ üçün xüsusi əhəmiyyət kəsb edən bu möhtəşəm tədbirlər dünyanın aparıcı telekanalları ilə bütün Yer Kürəsi ölkələrinə yayımlanmışdır. Qəbələnin 10—15 il bundan əvvəlki gökəmini bu günkü görkəmi ilə müqayisə edənlər sadəcə olaraq bu irəliləyişi fantastik irəliləyiş adlandırırlar. Həqiqət də belədir. Əgər o vaxtlar hər hansı qəbələliyə deyilsəydi ki, 10—15 il sonra Qəbələni bu günkü uğurlar gözləyir, burada beynəlxalq hava limanı, 1200 nəfərlik konqres zalı tikiləcək, dünya standartlarına uyğun üçulduz, beşulduz otelər, istirahət və sağlamlıq mərkəzləri inşa olunacaq və digər tədbirlər görüləcək o, istehza ilə bunu fantastik nağıl sayardı. Həqiqət isə budur. 10-15 il əvvəl Qəbələdən çıxan və yenidən Qəbələyə qayıdan hər kəs şəhərə daxil olanda özünü sanki möcüzəli bir nağıllar aləmində olduğu kimi hiss edir, hətta öz evinin yerini tapmaqda çətinlik çəkir.

Bu yaxınlarda möhtərəm Prezident İlham Əliyev Qəbələdə olarkən, ictimaiyyətlə görüşü zamanı Qəbələnin timsalında bölgələrin uğurlu inkişafını gördüyünü söyləmişdir. Cənab Prezident demişdir: «Burada görülən işlər yüksək qiymətə, təqdirə layiqdir».

Əlbəttə, Qəbələnin bu günki sürətli inkişafı, tərəqqisi bütün qəbələlilərin ürəyincədir. Onlar ümid edirlər ki, yaxın gələcəkdə də rayonumuz daha sürətlə inkişaf edəcək, yeni iş yerlərinin sayı daha da artacaq, əhalinin həyat səviyyəsi xeyli yüksələcək. Cənab Prezidentin bu il rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında imzaladığı sərəncamlar da bu fikrə tam əsas verir. Sərəncamlara uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 6,9 milyon manat (4,9+2 milyon) vəsait ayrılmışdır. Vəsaitlərlə əlaqədar rayonda görülən işlər davam edir.

Qəbələnin daha sürətli inkişafı, tərəqqisi firvan həyatı və daha gözəl gələcəyi isə hələ öndədir.

***Uğur olsun!.***

**Nadir ATAKİŞİYEV.**

**Foto S. Umuyevindir.**